

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 79 (20.980)

1 may 2014-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da İsrail Dövlətinin xarici işlər naziri Aviqdor Libermanı qəbul etmişdir.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə inkişafından məmnunluq ifadə olundu, yüksək texnologiyalar, kənd təsərrüfatı sahələrində əməkdaşlığımızın inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü il 30 aprel tarixli Sərəncamı ilə bir qrup aparıcı incəsənət xadiminə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilmişdir. Mükafat verilənlər arasında Naxçıvan Muxtar Respublikasının incəsənət xadimləri də vardır:

Əhmədov Səttar Qafar oğlu
Əliyev Rahib Rafael oğlu
Haxverdiyev Behruz Əyyub oğlu
Hüseynova Nərmin Mətləb qızı
Hüseynova Validə Vəli qızı
Qasımov Şəmsəddin Mustafa oğlu
Məmmədov Ayxan Rəşid oğlu
Nəcəfov Tural Nüsrət oğlu
Niftəliyeva Nurbəniz Nurəddin qızı

## F.N.Seyidovun Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat və sənaye naziri təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Famil Naqim oğlu Seyidov Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat və sənaye naziri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 30 aprel 2014-cü il*

## Komissiya fond əməkdaşları üçün seminar keçirib



*Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada keçirilən seminarda dövlət qulluqçularının etik davranış qaydaları və dövlət orqanlarında kadrlarla iş barədə söhbət açılıb.*

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun əməkdaşlarının iştirakı ilə keçirilən seminarda fondun sədr müavini Əli Quliyevin, komissiyanın sədri Etibar Musayevin, şöbə müdiri Rafiq Nəcəfovun çıxışları olub. Çıxışlarda 31 may 2007-ci il tarixdə qəbul edilmiş “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanunu, bu qanunun dövlət qulluqçuları üçün etik davranış qayda və prinsipləri, həmçinin onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizmlər haqqında tədbir iştirakçılarına ətraflı məlumat verilib. Vurğulanıb ki, dövlət qulluqçusu olmaq vətəndaşların üzərinə məsuliyyət qoyur. Dövlət qulluqçusu qanunçuluq, vicdanlı davranış, mədəni münasibət, qərəzsizlik, ictimai etimad, peşəkarlıq və fərdi məsuliyyətin artırılması prinsiplərinə əməl etməlidir.

Dövlət orqanlarında kadrlarla iş barəsində də geniş bəhs edilən seminarda iştirakçılara dövlət qulluqçularının şəxsi işinin aparılması qaydaları, dövlət orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılması, Azərbaycan Respublikasının Dövlət Qulluqçuları Reyestrinin aparılması qaydaları, dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi qaydaları, dövlət orqanları tərəfindən komissiyaya göndərilən sənədlərdə daha çox rast gəlinən nöqsanlar və onların aradan qaldırılması yolları haqqında məlumat verilib.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

## “Naxçıvan tarixi” çoxcildliyinin ikinci cildi hazırlanır

*Aprelin 30-da AMEA Naxçıvan Bölməsində “Naxçıvan tarixi” çoxcildliyinin ikinci cildinin hazırlanması ilə əlaqədar müəlliflərlə müzakirə aparılmışdır.*

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev tədbirdə çıxış edərək bildirmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan tarixi” çoxcildliyinin hazırlanması və nəşr olunması barədə” 6 avqust 2012-ci il tarixli Sərəncamına uyğun olaraq, “Naxçıvan tarixi” çoxcildliyinin hazırlanması davam etdirilir. Naxçıvanın çoxəsrlik tarixinə dair fundamental tədqiqatın hazırlanmasını nəzərdə tutan sərəncamda qeyd olunduğu kimi, “Azərbaycanın Naxçıvan Muxtar Respublikası böyük bir tarixi keçmişə malikdir. Aparılmış elmi tədqiqatlar sübut edir ki, Naxçıvan Muxtar Respublikasının yerləşdiyi ərazi bəşər sivilizasiyasının mühüm ocaqlarından biri olmuşdur. Bu ərazi antik, orta əsrlər və müasir dövr mədəniyyət nümunələri və tarixi abidələrlə – ilk insanların yaşadığı mağaralar, qədim yaşayış yerləri, qədim şəhərlər, möhtəşəm qalalar, xatirə memarlığının ən mükəmməl nümunələri olan türbələr və təkrarsız təbiət abidələri ilə zəngindir.

...Naxçıvan tarixinin müxtəlif dövrlərinə və problemlərinə dair xeyli sayda elmi-tədqiqat materiallarının nəşr olunması və keçirilmiş arxeoloji ekspedisiyalar nəticəsində yeni və zəngin materialların əldə edilməsi “Naxçıvan tarixi” çoxcildliyinin hazırlanması üçün əsas yaratmışdır”.

Qeyd olunmuşdur ki, artıq sərəncama uyğun olaraq, çoxcildliyin birinci cildi çap edilmiş və ikinci cildin hazırlanması istiqamətində işlər davam etdirilməkdədir.

Akademik İsmayıl Hacıyev muxtar respublika rəhbərinin birbaşa diqqət və qayğısı ilə çap edilən “Naxçıvan tarixi” çoxcildliyinin birinci cildinin nəşrindən ötən müddət ərzində görülən işlərdən də danışmışdır. Bildirilmişdir ki, bu müddət ərzində ikinci cildin müəllifləri ilə mütəmadi iş aparılmış, ikinci cildə daxil olacaq fəsillər üzrə müəlliflər müəyyənləşdirilmişdir. Bölmənin sədri bu cildə “Naxçıvan xanlığı”, “Naxçıvanın Rusiya tərəfindən işğalı”, “Naxçıvan XIX əsrdə”, “Naxçıvan XX əsrin əvvəllərində”, “Naxçıvan XX əsrin 20-30-cu illərində” adlı fəsillərin daxil edilməsinin nəzərdə tutulduğunu bildirmişdir.

Müzakirə zamanı müəlliflərin fikir və təklifləri dinlənilmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Əli Həsənov iştirak etmişdir.

*Aprelin 30-da Naxçıvan Tibb Kollecində “Heydər Əliyev lektoriyası”nın növbəti məşğələsi keçirilmişdir.*

## “Heydər Əliyev lektoriyası”nın növbəti məşğələləri



“Heydər Əliyev və Naxçıvanın muxtariyyət məsələsi” mövzusuna həsr olunan lektoriya məşğələsini kollecin direktoru İlhamə Mustafayeva açmışdır.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü Qadir Qədirzadə məruzə ilə çıxış edərək bildirmişdir ki, Naxçıvanın muxtariyyət məsələsi region üçün ən mühüm tarixi hadisədir. Ötən əsrin əvvəllərində Zəngəzurun Ermənistana birləşdirilməsindən sonra Naxçıvan ölkəmizin əsas ərazilərindən ayrı salınmışdır. Qədim diyarımızın mühüm coğrafi ərazidə yerləşməsi onu xarici ölkələrin maraqlarının kəsişdiyi əraziyə çevirmiş, ancaq yerli əhalinin qətiyyətli mübarizəsi nəticəsində Naxçıvana Azərbaycan dövləti tərkibində muxtariyyət statusunun verilməsi zərurəti yaranmışdır. Xalqımızın qəhrəman övladlarının, o cümlədən görkəmli diplomat Behbud ağa Şahtaxtinskinin gərgin əməyi sayəsində diyarın muxtariyyət statusu məlum Moskva və Qars müqavilələri ilə təsbit olunmuşdur.

Qeyd olunmuşdur ki, Azərbaycan diplomatiyasının uğurlu nəticələri hesab edilən bu müqavilələrin ötən əsrin sonlarında yenidən gündəmə gətirilməsi və dünya güclərinin diqqət mərkəzinə çatdırılması xalqımızın ümummilli lideri Heydər Əliyevin sayəsində mümkün olmuşdur. Ulu öndər məhz o ağır günlərdə xalqı ilə birlikdə Naxçıvanın müdafiəsinə qalxmış, bu qədim diyarın muxtariyyət statusunu yenidən gündəmə gətirməklə Naxçıvanı düşmən hücumundan qorumuşdur. Dahi şəxsiyyət Naxçıvanın muxtariyyət statusu əldə etməsini yüksək qiymətləndirmiş və demişdir: ***“Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq”.*** Böyük öndərin bu fikirləri Naxçıvanın tarixi taleyinə, onun təhlükəsizliyinin qarantı olan muxtariyyət statusuna verdiyi yüksək qiyməti özündə təcəssüm etdirir. İntibah dövrünü yaşayan Naxçıvan Muxtar Respublikası gücünü bu tarixi nailiyyətdən və Heydər Əliyev siyasi kursuna sadiqlikdən alır.

Sonra tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevə həsr olunmuş sənədli filmə baxmışlar.

* * *

*Dünən Ordubad Rayon Təhsil Şöbəsində “Heydər Əliyev lektoriyası”nın “Ulu öndər Heydər Əliyev və milli təhsilimiz” mövzusuna həsr olunmuş növbəti məşğələsi keçirilib.*

Tədbiri giriş sözü ilə rayon Təhsil Şöbəsinin müdiri İlqar Həsənov açaraq mövzu ilə bağlı məruzə edib. O qeyd edib ki, Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin nəzəri irsində və uzaqgörən fəaliyyətində təhsil məsələləri xüsusi yer tutur. Ulu öndərimiz ölkənin və xalqın taleyində, hərtərəfli tərəqqisində, uğurlar qazanmasında təhsilin xüsusi rolunu, əhəmiyyətini yüksək qiymətləndirib. Dahi rəhbər həm təhsilin məzmunu, mahiyyəti, məqsədləri, səmərəli təşkili, müəllim əməyinin şərəfi, şagirdlərin və tələbələrin vəzifələri barədə dəyərli fikirlər söyləyib, həm də Azərbaycan təhsilinin hərtərəfli yüksəlişi qayğısına qalıb, illər boyu bu sahədə böyük inkişafa rəvac verən sistemli tədbirlər həyata keçirib. Bir sözlə, xalqımızın böyük oğlu Heydər Əliyevin milli təhsil və tərbiyə məsələlərinə dair nəzəri konsepsiyası son dərəcə qiymətli olub, çağdaş dövrdə də, gələcək yüzillərdə də öz dəyərini, əhəmiyyətini saxlamaq gücünə malikdir. Bu konsepsiya hər bir təhsil alanın, hər bir pedaqoqun, ümumən, hər bir Azərbaycan vətəndaşının fəaliyyət devizi, həyat amalıdır.

Sonra şöbənin əməkdaşlarından Elvin Məmmədovun, Əyyar Səfərovun, Ordubad şəhər 3 nömrəli tam orta məktəbin direktoru Əliağa Rzayevin çıxışları olub.

**Xəbərlər şöbəsi**



# Ulu öndər Heydər Əliyevin sənayeləşmə siyasəti iqtisadi uğurlarımızın təməlidir

*Son onilliklər ərzində Azərbaycanda iqtisadi situasiyanın davamlı olaraq yaxşılaşması iqtisadiyyatda yeni imkanlar və perspektivlər yaratmışdır. Bütün dünyada olduğu kimi, ölkəmizdə də texnoloji inkişaf və sənayeləşmə iqtisadi artımın uzunmüddətli hərəkətverici qüvvələrinə çevrilmişdir. Ölkəmizin iqtisadi və sosial inkişafında bu amilin nəzərə alınması son illərdə qəbul edilmiş mühüm dövlət proqramları və sənədlərində aydın şəkildə ifadə olunur.*

Dövlət başçısının 10 yanvar 2014-cü il tarixli Sərəncamı ilə 2014-cü ilin "Sənaye ili" elan edilməsi keyfiyyətcə yeni mərhələdə Azərbaycanın müasir iqtisadiyyata malik dövlətə çevrilməsi, müstəqil siyasət yürütməsi, ən əsası isə inkişaf etmiş ölkələr səviyyəsinə yüksəlməsi istiqamətində aparılan məqsədyönlü fəaliyyətin məntiqi davamıdır.

Azərbaycanda, eləcə də tarixən kənd təsərrüfatı regionu kimi tanınan Naxçıvan Muxtar Respublikasında sənayeləşmə siyasətinin əsası ötən əsrin 70-80-ci illərində xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur. Onun ölkəmizə rəhbərlik etdiyi dövrdə ictimai həyatın bütün sferalarında olduğu kimi, iqtisadi sahədə də atılmış həlledici addımlar Azərbaycan iqtisadiyyatının tərəqqisində müstəsna rol oynamışdır.

Hələ sovet dönəmində Azərbaycana rəhbər seçildikdən sonra iqtisadiyyatın inkişafına xüsusi diqqət ayırmasının nəticəsi kimi sürətli sənayeləşdirmə siyasətinin həyata keçirilməsi, ölkədə nəhəng sənaye müəssisələrinin, o cümlədən neft infrastrukturunun formalaşdırılması, daxili tələbatı ödəyən sahələri inkişaf etdirməklə ölkənin gələcək iqtisadi müstəqilliyə hazırlanması ümummilli liderin uzaqgörən siyasətinin parlaq təzahürüdür. Məhz buna görə də XX əsrin 70-80-ci illəri Azərbaycan sənayesinin sürətli inkişafı, iqtisadiyyatın maddi-texniki bazasının möhkəmləndirilməsi illəri kimi tarixdə qalmışdır.

Görkəmli dövlət xadimi Heydər Əliyev respublikamıza rəhbər seçildikdən sonra Azərbaycan iqtisadiyyatının əsasını təşkil edən neft sənayesinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilmişdir. Məhz bu dövrdə görülən məqsədyönlü tədbirlər nəticəsində neft sənayesi möhkəmlənmiş və onun geniş infrastrukturu yaradılmışdır. Azərbaycanda dəniz yataqlarının işlənilməsi üçün qazma qurğuları, dənizdə tikinti işlərini təmin etmək üçün xüsusi gəmilər, texnika və avadanlıq gətirilmiş, Bakı Dərin Dəniz Özülləri Zavodu kimi nəhəng strateji istehsalat qurğusu tikilmişdir. Bununla yanaşı, neft emalının, neft-kimya sənayesinin və neft maşınqayırmasının inkişafında böyük sıçrayış olmuşdur. Həmin dövrdə dərinliyi 40 metrdən artıq olan sahələrdə qazma işləri aparmaq üçün maliyyə və texnika çatışmadığından neft və qaz hasilatı aşağı səviyyədə idi. Məhz dahi rəhbərin düşünülmüş siyasəti nəticəsində 12 il ərzində Azərbaycana əvvəlcə dənizin 70 metr dərinliyində, sonra isə 200 metrədək dərinliyində işləyən 12 qurğunun gətirilərək istismara verilməsi neft sənayesinin inkişafına böyük təkan vermişdir.

1971-1975-ci illərdə maşınqayırma, kimya və yeyinti məhsulları sənayesinin, tikinti materialları istehsalının yüksək sürətlə inkişaf etdirilməsi qarşıya qoyulmuşdu. Qəbul edilmiş qərarlar maşınqayırmanın iqtisadiyyatın inkişafındakı mövqeyini möhkəmləndirməyə xidmət edirdi. Həmin illərdə qara və əlvan metallurgiyanın inkişaf etdirilməsinə də böyük diqqət yetirilirdi.

Ulu öndər Heydər Əliyevin birbaşa rəhbərliyi və nəzarəti altında təkcə 1971-1975-ci illərdə 55 yeni iri sənaye müəssisəsi və işləyən müəssisələrdə 32 yeni istehsal sahəsi işə salınmışdır. 1975-ci il dekabrın 25-də Bakıda məişət kondisionerləri istehsal edən nəhəng sənaye kompleksi istifadəyə verilmişdir.

Bütövlükdə isə 1970-1985-ci illərdə Azərbaycanda 213 yeni iri sənaye müəssisəsi istismara verilmişdir. Elektron maşınqayırması, radiosənaye, yüngül və yeyinti sənayesi üçün maşın və avadanlıqlar, habelə digər mütərəqqi sənaye sahələri həmin dövrdə yaradılmışdır.

Ümummilli liderimiz Heydər Əliyevin respublikada sənayenin inkişaf etdirilməsi istiqamətində ardıcıl səyləri ittifaq hökumətinin diqqətini Azərbaycana cəlb etmiş və 1976-cı il iyulun 27-də Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin "1976-1980-ci illərdə respublikanın ayrı- ayrı sənaye sahələrinin inkişafına dair Azərbaycan Kommunist Partiyası MK-nın təklifinə baxılmasının yekunları haqqında"qərar qəbul etməsi ilə nəticələnmişdir.

1969-1982-ci illərdə respublikamızın sənayesi nəinki keçmiş ittifaqın bütün respublikalarına, hətta bir sıra inkişaf etmiş xarici ölkələrə nisbətən daha yüksək sürətlə inkişaf edirdi. Sənayenin orta illik artımı 7,9 faizə yüksəlmişdi. Təkcə 1982-ci ilin iki günü ərzində, bütünlükdə, 1920-ci ildə buraxılan məhsulun həcmi qədər məhsul buraxılmışdır.

Azərbaycan 1970-1985-ci illərdə neft məhsulları, neft avadanlığı, polad borular, əlvan metallar, sintetik kauçuk, elektrik mühərrikləri, məişət kondisionerləri, mineral gübrələr, çinisaxsı, xalça və xalçaçılıq məmulatı istehsalı üzrə Sovetlər İttifaqında aparıcı yerlərdən birini tuturdu. Ölkəmizdə buraxılan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu.

Xalqımızın böyük oğlu Heydər Əliyev müstəqillik dövründə Azərbaycanda iqtisadi inkişafın möhkəm təməli kimi həmin illərdə görülən işləri yüksək qiymətləndirərək deyirdi: ***"Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha da dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır".***

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsindən sonra respublikanın bütün regionları kimi, iqtisadiyyatı bərbad vəziyyətdə olan Naxçıvan Muxtar Respublikasının da sosial-iqtisadi həyatında yüksək inkişaf mərhələsinin möhkəm təməli qoyulmuşdur. Təkcə bir faktı göstərmək kifayətdir ki, 1971-1985-ci illərdə Naxçıvanın iqtisadiyyatına əsaslı vəsait qoyuluşu əvvəlki 46 il (1925-1970-ci illər) ərzində qoyulmuş əsaslı vəsaitdən xeyli çox idi. Bu illər ərzində Naxçıvan iqtisadiyyatına, bütövlükdə, 900 milyon manat sərmayə qoyulmuşdur.

Həmin illərdə İranla birgə Araz çayı üzərində elektrik stansiyası, respublika əhəmiyyətli iri alt trikotaj fabriki, yeni mineral sudoldurma zavodu, şüşə qablar zavodu, taxıl məhsulları kombinatı, iri evtikmə kombinatı, dəmir-beton məmulatları zavodu, Şahtaxtı daş karxanası, kərpic zavodu, bir neçə ilkin şərabçılıq müəssisəsi, süd zavodu, bütövlükdə, 21 iri sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir. Naxçıvan xalça kombinatının, Şərur konserv zavodunun tikintisi başa çatdırılmış, elektrotexnika zavodunun, Ordubad konserv zavodunun, ipək fabrikinin yenidən qurulması və genişləndirilməsi işləri həyata keçirilmişdir.

Ümummilli liderin həyata keçirdiyi bu işlərin nəticəsi idi ki, artıq 1985-ci ildə Naxçıvan sənayesi 100-dən çox müəssisə ilə, o cümlədən 50 müstəqil balansa malik iri dövlət müəssisəsi ilə təmsil olunurdu.

Bütün bu quruculuq fəaliyyəti nəticəsində 1985-ci ildə Naxçıvanda istehsal edilən sənaye məhsulunun həcmi 1970-ci ilə nisbətən 4,6 dəfə çoxalmış, respublika sənayesində payı isə 2,3 faizə yüksəlmişdir. 1985-ci ildə Azərbaycanda istehsal edilən daşduzun hamısı, alt trikotaj məmulatlarının və mineral suların əksər hissəsi, konservlərin 6 faizi, ipək xammalının 23 faizi, üzlük travertin tikinti materiallarının və butulka istehsalının hamısı, şərab məhsullarının xeyli hissəsi Naxçıvan Muxtar Respublikasının payına düşürdü.

Bu dövrü fərqləndirən əsas cəhət isə ondan ibarətdir ki, muxtar respublikada tarixən mövcud olmuş sahələr inkişaf etdirilməklə bərabər, yeni istehsal sahələri də yaradılmış, energetika, dağ-mədən, maşınqayırma və metal emalı kimi mütərəqqi sənaye sahələri sürətlə inkişaf etdirilmişdir. Azərbaycanda mövcud olan 16 iri sahə istehsal kompleksindən 11-i Naxçıvanda yaradılmışdı.

Xalqımızın bəxti onda gətirdi ki, Ulu Tanrı dahi şəxsiyyət Heydər Əliyevə başladığı müqəddəs missiyanı və yarımçıq qalmış nəhəng planlarını davam etdirmək üçün yenidən imkan yaratdı. Müstəqilliyimizin ilk illərində xalqımızın təkidi ilə siyasi hakimiyyətə qayıdan ümummilli liderimizin təşəbbüsü və rəhbərliyi altında Azərbaycanda milli iqtisadiyyat quruculuğu istiqamətində irimiqyaslı iqtisadi islahatlara start verilmişdir. Bu islahatların qarşısında duran əsas vəzifələrdən biri də ölkə iqtisadiyyatında sənaye sahələrinin inkişafına əlverişli şərait yaratmaqdan ibarət idi.

Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət hesabına Azərbaycanda sənaye sektoru yeni inkişaf yoluna qədəm qoymuş, yeni nəhəng sənaye müəssisələrinin yaradılması davamlı xarakter almışdır. Bu sahənin inkişafının güzəştli kreditlərlə maliyyələşdirilməsi, xarici investisiyaların cəlb edilməsi, inkişafa mane olan problemlərin həlli istiqamətində mühüm addımlar atılmış, sənaye sektoru iqtisadiyyatın prioritet sahəsi kimi üstün mövqe qazanmışdır. 1994-cü ildə Əsrin müqaviləsinin imzalanması ilə başlanğıc götürən yeni sənayeləşmə siyasəti sonrakı illərdə qeyri-neft sektorunu da sürətlə əhatə etmiş, bütün dünyada gənc və perspektivli hesab edilən müasir sənaye sahələrinin ölkəmizdə yaradılması və inkişaf etdirilməsi iqtisadi siyasətimizin prioritetlərindən birinə çevrilmişdir.

Son illərdə Azərbaycanda sənayenin inkişafı üçün istehsalın daha təkmil və mütərəqqi təşkili formaları sürətlə mənimsənilir və bununla da, iqtisadiyyatın bu aparıcı sahəsinin respublika həyatında əhəmiyyəti artır. Ölkə başçısı cənab İlham Əliyevin təşəbbüsü ilə ölkəmizdə yaradılan bir neçə sənaye texnoparkı yeni istehsal sahələrinin meydana gəlməsində və regionların tarazlı sosial-iqtisadi inkişafında mühüm rol oynayır. Nazirlər Kabinetinin 2014-cü ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyev ölkəmizdə sənayeləşmə ilə bağlı düşünülmüş siyasət aparıldığını vurğulayaraq ənənəvi sənaye mərkəzləri ilə yanaşı, bütün regionlarda da sənaye zonalarının yaradılması ilə bağlı göstəriş vermişdir.

Təbiidir ki, ölkədə həyata keçirilən sənayeləşmə siyasəti bütün regionlar kimi, Naxçıvan Muxtar Respublikasında da iqtisadiyyatın strukturunu əhəmiyyətli dərəcədə dəyişdirmişdir. Belə ki, tarixən kənd təsərrüfatı regionu kimi tanınan Naxçıvanda sürətlə həyata keçirilən sənayeləşmə tədbirləri nəticəsində Ümumi Daxili Məhsulun strukturunda sənaye artıq ilk yerdə təmsil olunmaqdadır.

Muxtar respublikada yeni sənaye müəssisələrinin yaradılmasının, azad rəqabət mühitinin inkişaf etdirilməsinin və rəqabətədavamlı yeni məhsul növləri istehsalının dəstəklənməsinin nəticəsidir ki, 2013-cü ildə 862 milyon 870 min manat həcmində sənaye məhsulu istehsal olunmuş və əvvəlki ilə nisbətən 6,3 faiz artım qeydə alınmışdır. Sənaye məhsulu istehsalının 95,6 faizi malların, 4,4 faizi isə xidmətlərin payına düşmüşdür. Artıq muxtar respublikada il ərzində istehsal olunan sənaye məhsulunun həcmi kənd təsərrüfatı məhsulunun həcmindən orta hesabla 2,6 dəfə çoxdur ki, bu da, ümumilikdə, regionda sənaye potensialının aparıcı mövqe qazandığını sübut edir.

Sənayedə bazar münasibətlərinin formalaşdırılması və onun dayanıqlı inkişafı bir sıra mühüm şərtlərdən – sənaye sahibkarlığının inkişaf etdirilməsindən, sənaye məhsulları istehsal edən təsərrüfat qurumlarının fəaliyyətinin iqtisadi cəhətdən stimullaşdırılmasından, onlara zəruri investisiya yardımlarının göstərilməsindən asılıdır ki, bütün bu məsələlər muxtar respublikada operativ olaraq yüksək səviyyədə öz həllini tapmışdır.

İstehsal potensialının gücləndirilməsi istiqamətində 2013-cü ildə muxtar respublikada dövlət dəstəyi ilə 124 layihə üzrə istehsal və xidmət obyektləri istifadəyə verilmiş, iqtisadi fəaliyyətin müxtəlif sahələri üzrə 46 istehsal və xidmət obyektinin qurulması davam etdirilmişdir. Bu ilin ilk rübündə isə artıq 12 layihə üzrə istehsal və xidmət obyektləri istifadəyə verilmiş, 37 layihə üzrə işlər davam etdirilməkdədir.

Muxtar respublikada iqtisadiyyatın şaxələndirilməsi və sosial sahənin inkişafı üçün 2013-cü il ərzində bütün maliyyə mənbələri hesabına əsas kapitala 1 milyard 37 milyon 748 min manat həcmində investisiya yönəldilmişdir ki, bu da əvvəlki illə müqayisədə 5,6 faiz çoxdur. İnvestisiya qoyuluşlarının 919 milyon 43 min manatı və ya 88,6 faizi tikinti-quraşdırma işlərində istifadə edilmişdir. Bu ilin ilk rübündə isə əsas kapitala yönəldilən investisiyaların həcmi 227 milyon 361 min manat təşkil etmişdir.

Bütün bunların nəticəsidir ki, muxtar respublikada iqtisadi artım və investisiya prosesi bir-birini tamamlayır. 2013-cü ildə əvvəlki ilə nisbətən sənaye məhsulunun həcmi 6,3 faiz, əsas kapitala yönəldilən investisiyalar 5,6 faiz artmışdır. 2014-cü ilin ilk rübündə isə bu artım müvafiq olaraq 2,6 faiz və 2,3 faiz təşkil etmişdir. Göründüyü kimi, investisiya resurslarının sahələr arasında düzgün bölüşdürülməsi sərbəst investisiya ehtiyatlarından daha səmərəli istifadə etməyə imkan verir.

Ümumiyyətlə, genişlənməkdə olan investisiya fəallığı Naxçıvan Muxtar Respublikasının uzunmüddətli inkişaf strategiyasının həyata keçirilməsinə və onun səmərəliliyinə mühüm təsir göstərir. Muxtar respublikanın mineral-xammal ehtiyatları, əmək ehtiyatları, böyük istehsal potensialına malik olması daxili və xarici bazarlarda tələbat duyulan müxtəlif növ sənaye məhsullarının istehsalı, kənd təsərrüfatı xammalının emalı üçün geniş imkanlar açır. Muxtar respublikada uğurla həyata keçirilən investisiya proseslərinin dövlət tərəfindən idarə olunması və stimullaşdırılması tədbirləri sənaye sektorunda struktur dəyişikliklərinin keçirilməsinin və onun səmərəliliyinin yüksəldilməsinin sınanılmış, alternativi olmayan ən mühüm vasitələrindən biridir.

Ölkəmiz bazar iqtisadiyyatı yolunu seçdiyi üçün və onun sərhədləri xarici investorların üzünə açıq olduğundan sənaye müəssisələri də yeni iqtisadi şəraitə uyğun daha keyfiyyətli və rəqabətədavamlı məhsullar istehsal etməyə başlamışlar. Muxtar respublikada sənayenin rəqabətqabiliyyətli son məhsul istehsal etmək imkanlarının artırılması regionun sənaye sektorunda ixracat imkanlarını da artırır. Belə ki, sənaye sahəsinin inkişafı ixracın da həcminə müsbət təsir göstərmiş və 2013-cü ildə 308 milyon 295 min ABŞ dolları həcmində, 2014-cü ilin ilk rübündə isə 39 milyon 440 min ABŞ dolları dəyərində sənaye məhsulu ixrac istiqamətində göndərilmişdir.

Son illərdə Naxçıvanda bir-birinin ardınca iri və modern sənaye obyektlərinin – Avtomobil Zavodunun, Sement Zavodunun, su və istilik elektrik stansiyalarının, emal müəssisələrinin geniş şəbəkəsinin yaradılması ulu öndər Heydər Əliyevin əsasını qoyduğu sənayeləşmə siyasətinin muxtar respublikamızda uğurla davam etdirilməsinin nəticəsidir.

***Heç şübhəsiz, ölkəmizdə xalqımızın böyük oğlu Heydər Əliyevin əsasını qoyduğu sənayeləşmə strategiyasının uğurla reallaşdırılması, regionların inkişafının daha da sürətləndirilməsi ilə bağlı tədbirlərin davam etdirilməsi, eləcə də yerli istehsalın stimullaşdırılması istiqamətində həyata keçirilən işlər ölkə iqtisadiyyatının əsasını təşkil edən sənayenin yeni sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olacaqdır.***

**Müslüm CABBARZADƏ**
*iqtisad üzrə fəlsəfə doktoru*

# Turizm









***Qış fəsli artıq çoxdan arxada qalıb. Naxçıvanlılar əvvəlki illərdə qazandıqları uğurları daha da artırmaq, çoxlarının hələ on il əvvəl proqnoz etməkdə çətinlik çəkdiyi inkişafı daha yüksək səviyyəyə qaldırmaq üçün yeni təsərrüfat mövsümünə başlayıblar. İndi muxtar respublikada quruculuğun, yaz-əkin işlərinin səs-sədası sərhəd məntəqələrindən, ucqar dağ kəndlərindən gəlməkdədir. Növbəti turizm-istirahət mövsümü də artıq başlayıb və muxtar respublikamıza  səfər edən turistlərin axını güclənib.***

## Bu ilin turizm mövsümü bizə nə vəd edir?

### *Yaxud turistlərimiz bizdən nə gözləyirlər?*



Çoxları turizm deyəndə, sadəcə, istirahət edərək mənalı vaxt keçirməyi nəzərdə tutur və özünün haqqı olduğu rekreasiya tələbatını ödəmək üçün bəyəndiyi turizm mərkəzlərinə üz tutur. İndi səyahətlərə yollanıb dincəlmək üçün yaxşı imkanlar vardır. Muxtar respublika sakinləri tətilini, məzuniyyətini istədiyi yerdə – həm muxtar respublikamızda, həm ölkəmizin digər yerlərində, həm də dünyanın istənilən ölkəsində keçirə bilir, geri qayıdıb öz dost-tanışları ilə təəssüratlarını bölüşürlər. Ancaq bu da var ki, turizm, ümumilikdə, iqtisadiyyatın bir sahəsidir. Burada da bazarın öz qanunları, xidmət peşəkarlığı son sözü deyən amillər kimi özünü göstərir və nə qədər cazibədar turizm ehtiyatları mövcud olsa da, bunlar olmadığı təqdirdə onlar eləcə istifadəsiz ehtiyatlar kimi qalacaqlar. Ona görə də turistlərə gəlir gətirən xidmətlər göstərib mənfəət əldə etmək baxımından turizm mövsümünə hazırlıq işlərinin əhəmiyyəti böyükdür. Naxçıvana həm ölkəmizin digər regionlarından, həm də dünyanın müxtəlif ölkələrindən gələn turistlərdə dolğun təəssürat yarada biləcək genişməzmunlu turizm ehtiyatlarımız olduğundan burada da turizm mövsümünə hazırlıqla bağlı məsələlər maraq doğurur.

Turizm səfərlərinə yollanaraq aktiv istirahəti bir həyat tərzinə çevirmiş təcrübəli turistlər və peşəkar servis işçiləri yaxşı bilirlər ki, turizm xidmətlərinin müasir tələblər səviyyəsində təşkili özü ilə bərabər çoxlu sayda cari məsələlərin həllinin əvvəlcədən planlaşdırılmasını tələb edir. Yəni, misal üçün, turistləri daşıyan mikroavtobus otelin qarşısında dayanandan sonra verilən “gecələmək üçün boş yeriniz varmı?” sualı artıq çoxdan dəbdən düşüb. Müasir turizm xidmətlərində ən azı 3 ay əvvəlcədən turoperator və ona bağlı olan otel, restoran və nəqliyyat müəssisələri, ekskursiya büroları öz işlərinin planını tutur və buna müvafiq işgüzar əlaqələr qururlar. Bütün bunlar isə turizmin ən böyük problemlərindən olan mövsümiliyin həll olunmasına, dolayısı ilə otellərin maksimum şəkildə doldurulmasına xidmət edir. Turizmdə əsas işləri canlı olaraq göstərilən xidmətlər şəklində görsək də, əslində, bütün bunlar günlər və hətta aylar öncəsindən turist göndərən, turist qəbul edən, turistləri daşıyan, onlara bələdçilik, yemək, əyləncə və sair xidmətləri göstərən çoxlu sayda özəl və dövlət qurumlarının birgə, koordinasiyalı fəaliyyətindən asılıdır ki, bu da istənilən məqsədyönlü fəaliyyət kimi mövsüm öncəsi planlaşdırma tələb edir.

Qeyd edək ki, xalq təsərrüfatında mövsümi işlər çoxdur və onların hər birinin özünəməxsus xüsusiyyətləri vardır. Turizmin mövsümiliyi isə onun təşkil olunduğu regionun və hətta onun bir ərazisinin təbii, coğrafi, iqlim, landşaft xüsusiyyətləri, yerli insanların məşğuliyyəti, qonaqpərvərlik adət-ənənələri, mətbəxi və sair ilə seçilir.  Məsələyə Naxçıvan Muxtar Respublikası timsalında baxsaq, məsələn, Ordubadla Şahbuzda ekoturizm mövsümünün eyni dövrə, digər turizm növlərinin, deyək ki, etnik turizmin tamamilə müxtəlif dövrlərə düşdüyünü asanlıqla görə bilərik. Buna görə də turizm mövsümünə dünyanın hər yerində ciddi hazırlıq işləri görülür, mövsümqabağı sərgilər, işgüzar görüşlər keçirilir, turizm firmasının iş ortaqları ilə müqavilələri təzələnir, perspektivlər müəyyənləşdirilir, yeni turizm marşrutları işlənib hazırlanır, firmanın daimi müştərilərinə fərdi elektron məktublar göndərilir və sair. Turizm mövsümü öncəsi turizm mütəxəssislərinin, beynəlxalq turizm təşkilatlarının yüksək vəzifəli nümayəndələrinin ölkələrə səfərləri növbəti turizm mövsümünə hazırlığın ciddiliyindən xəbər verir. Misal üçün, bizim bəzi “turizmçi”lərin səhvən ”ingilis” adlandırdığı, ancaq tələbələrimizin belə, yaxşı tanıdığı Ümumdünya Turizm Təşkilatının Baş katibi Taleb Rifainin bu yaxınlarda Azərbaycana səfər edərək dövlət başçısı ilə görüş keçirməsi dünyanın turizm sahəsində ölkəmizdən nə gözlədiyini açıq-aydın göstərir. Bu da təsadüfi deyildir. Çünki Azərbaycan Respublikası inkişaf edən sabit bir ölkədir və xalqımız öz tolerantlığı və qonaqpərvərliyi ilə həmişə diqqəti cəlb etmişdir. Buradakı turizm ehtiyatları da öz cazibədarlığına görə seçilirlər. Müasir dövr turistlərinə də elə bu lazımdır. Ona görə də dünyada humanitar və regional inkişafın körükləyicisi, mədəniyyətlərarası mübadilənin ən yaxşı vasitəsi sayılan qlobal turizmin Azərbaycandan, onun hər bir bölgəsindən, o cümlədən qədim mədəniyyət beşiyi Naxçıvandan da gözlədiyi bir çox qazanclar vardır.

Bəli, dünya bizə belə qiymət verir. Və bu dəyəri əməli işə çevirib ondan yurdumuzun təbiətini, mədəniyyətini və inkişafını tanıtmaq üçün növbəti turizm mövsümünün lap başlanğıcındayıq. Ancaq kimlərsə hələ sektorda bu il “siftə” etməyibsə, bir az da özünün hazırlıq işlərinə baxsın. Bu il üçün onlar hansı yeni tur proqramlar düşünüblər? Muxtar respublikamızın hansı turizm marşrutları üzrə turistlərin hərəkəti planlaşdırılır? Mövsüm öncəsi hansı turizm sərgilərində iştirak ediblər, kimlərlə işgüzar əlaqələr qurulub? Şəhərimizin, muxtar respublikamızın gur axınlı yerlərində hansı məzmunda və neçə reklam tabloları vardır? Naxçıvan şəhərinin, muxtar respublikanın hansı xarici dillərdə turizm-bələdçi kitabçaları və xəritələri nəşr olunub? Biz xaricdən, turizm sərgilərindən, lap elə Bakı şəhərində hər il keçirilən və nüfuzuna görə Avropada və MDB-dəki sərgilər arasında ön yerləri tutan, artıq 13-cü dəfə keçirilən Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər Sərgisindən qucaq-qucaq bukletlər gətirib dost-tanışlara hədiyyə edir, bununla da, tələbələrə özümüzü göstəririk. Bəs özümüz həmin sərgilərə və ya xarici ölkələrə gedəndə nə qədər sayda və adda bukletlər aparıb paylayırıq? İcra hakimiyyətləri, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi, onun rayon şöbələri turizm ehtiyatlarımız, onların rekreasiya dəyəri, turistlərə göstərilə biləcək konkret xidmətlər və onların qiymətləri haqda hansı elektron resurslar hazırlayıb internetdə yerləşdiriblər? Yaxud turizm sahibkarlığı üzrə hansı biznes-planlar işlənilib və ya sahibkarlara bu barədə tövsiyələr verilib? Muxtar respublikada kənd turizmi istiqamətində hansı mikrolayihələr aparılır və bunlara nə qədər kredit yönəldilir? Və yaxud on ilə yaxın bir müddətdə muxtar respublikamızda turizm üzrə kadr hazırlığı aparılır. Bu müddət ərzində Naxçıvanın turizm ehtiyatları, onun turizm marşrutları, turizm bazarının imkanları və perspektivləri haqda hansı dərs vəsaitləri hazırlanıb? Naxçıvan Dövlət Universitetində və ölkəmizin digər təhsil ocaqlarında bakalavr və magistr təhsili almış neçə turizm məzunu öz ixtisası üzrə işlərlə təmin olunublar? Sualları daha sadalamaq istəmirəm.

**Güman ki, bütün bunlar özümüzə, turizmin inkişaf etdirilməsi üzrə məsul olan hər kəsə bəllidir. Axı bizim qarşımıza turizmi də Naxçıvanın müasir hərtərəfli inkişafı səviyyəsində qurmaq vəzifəsi qoyulub. Və bu məsələlər turistlər artıq qapıda gözləyəndə deyil, hər mövsüm öncəsi həll olunmalıdır. Amma yaxşı ki, turizm gündən-günə genişlənən bir sahədir və deməli, bu il görəcəyimiz bütün işlər heç olmasa gələcək mövsümə bir hazırlıq olacaq. Biz də sizinlə bu məsələlərə birgə toxunub bu turizm mövsümündə aparmaq istədiyimiz araşdırmaların yönünü, əslində, sadalamış olduq.**

## Kənd turizmi yeni mövsümdə yeni fürsətlər vəd edir

***İlk baxışda sadə görünən kənd həyatı özünün bütün gözəllikləri və təsərrüfat qayğıları ilə çox mürəkkəb, eyni zamanda cəlbedicidir. Xüsusən yay fəslində, lap elə bu gözəl yaz günlərində bir tərəfdən müasirliyin, bir tərəfdən də səhərin sübhündə –  Günəşin ilk şəfəqlərindən də öncə oyanan əsl qaynar kənd həyatının sehrinə qapılmamaq mümkün deyil. Budəfəki yay məzuniyyətini kənddəki gözəl evlərin birində ailəlikcə keçirmək bu sehrli aləmi yaşamaq üçün ən gözəl fürsətdir. Kənd turizmi insanın rekreasiya ehtiyacını ödəyən ən sadə və ən ucuz istirahət növüdür.***






Bəzən şəhərdə oturub kənd haqqında danışarkən bir sıra maraqlı məqamlarla qarşılaşırsan ki, bunların da bir qismi kənd turizmi ilə əlaqəli yaranan suallara çox bənzəyir. Məsələn, bir vaxtlar kəndi bəyənməyib nəyin bahasına olursa-olsun, şəhərdə yaşamaq qərarına gələrək hətta dədə-baba torpaqlarını dəyər-dəyməzinə satıb beşinci mərtəbədə kirayə qalanlara hələ şəhərli deyə bilmədiyimiz kimi, yay fəslinin həftəsonu günlərinin birində mikroavtobusla kəndin dilbər guşələrinin birinə gələrək burada əylənib musiqi dinləyənləri də kənd turistləri adlandırmaq qeyri-mümkündür. Düzdür, indi artıq kəndlərimiz abadlaşdırılıb müasirləşdikcə nəinki kimsə buralardan köçmək fikrinə düşür, tam əksinə, camaat imkan düşən kimi bu dəfə kənddə özünə şərait qurmağa çalışır. Kəndə səyahət edib burada mənalı istirahət günləri keçirmək əvəzinə mikroavtobusda özləri ilə gətirdikləri qazanda tələm-tələsik hazırladıqları bozpörtü yorğun-arğın yeyib, bir az da söyüd ağacının kölgəsində yatıb “dincələndən” sonra təzədən şəhərə qayıdan dostlarımıza elə bir kənd turizmi tablosu təklif edirik ki, bunu heç bəzən Aralıq dənizi sahillərində də tapa bilməzlər.

Dəniz demişkən, dünən redaksiyamızda mənim kimi əslən kənddən olan həmkarımla bu yazının yaradıcı müzakirəsi zamanı sual yarandı ki, bəs bizdə dəniz və yaxud geniş çimərliklər yoxdursa, turistlərə nə təklif edə bilərik? Cavab da dərhal, özlüyündə yarandı. Bir insanı özünə çəkən dəniz, Günəş və narın qum varsa, digər bir insanı da özünə bağlayan kəndin yamyaşıl çəmənlikləri, buz bulaqları, iti axan dağ çayı, baldırğan gözəsi və kol dibində bənövşəsi vardır. Yəni həmkarım bir anlığa fikrə gedib anladı ki, kənd turizmi deyəndə heç də biçənəklinin Ərəfsəyə istirahətə getməyi düşünülməməlidir. Deməli, hər işin bir elmi olduğu kimi, kənd turizminin də araşdırmalarla hasilə gələn, real təkliflərə əsaslanan və bölgənin təbii-coğrafi, iqlim şəraiti ilə bərabər, sosial-iqtisadi inkişaf səviyyəsi və yerli əhalinin məşğulluq ənənələri ilə uzlaşan uğurlu layihələri olmalıdır.

Bəs nədir kənd turizmi? Kənd turizmi ekoturizmin bir yarımnövüdür və adından da göründüyü kimi, burada əsas motiv insanların canlı təbiətlə birbaşa ünsiyyətdə olub ehtiyacı olduğu təəssüratı almasıdır. Kənd turizmində sadə kənd həyatı – primitiv, ancaq təmiz və gözəl həyat tərzi, şəhərin səs-küyündən tamamilə fərqli şəkildə səssizliyə qərq olmuş daş hasarlı, həmərsin çəpərli küçələri, gözünü yarpız basmış buz bulaqları, il boyu aşıbdaşan meyvəsi, bir-birindən maraqlı müxtəlif təsərrüfat işləri, axşamları dəcəl quzularını örüşdən gətirən kəndirbaz kimi qoçaq kənd uşaqları, təzə tikilmiş kənd mərkəzinə ağsaqqal gələndə əlindəki telefonunu gizlədib küncə sığınan kənd cavanları və gecə yarısı da olsa, elliklə insanın köməyinə tələsən kənd camaatı ilə ünsiyyət yaranır. Bəli, əgər kənd turizmi deyib, kənddə əsl istirahət etmək istəyirsinizsə, nəinki bir gün, heç ikigünlük həftəsonu da dolğun təəssürat almağa yetməz.

Kənd turizmi mövsümi turizmdir və onun təşkil olunması üçün çox ciddi tanışlıq və ya reklam tələb olunmur. İndi kəndlərimizdə yaradılmış şəraitin özü ən güclü reklamdır. Kəndin milli qonaqpərvərliyini də bəri başdan tanıtmağa ehtiyac yoxdur. Amma buradakı digər təşkilatçılıq işlərinin peşəkarcasına həll olunması tələb olunur. Başqa sözlə, kənddə turistlərin almaq istədiyi və kəndlinin onlara göstərə biləcəyi yataq, yemək və sair kimi zəruri xidmətlərin peşəkar qonaqpərvərliyin tələblərinə uyğun şəkildə göstərilməsi günün vacib məsələsidir. Yəni sanki kəndə gəlmiş qonaqdan pul almaq qeyri-qonaqpərvərlik imiş kimi düşüncənin əksinə olaraq, kənd turistlərinə onların tələbatlarına uyğun xidmətlər göstərib əvəzində bazar qiymətlərinə uyğun haqq alınmalıdır. Bu isə kənddəki yerli əhalinin iqtisadi maraqlarını ödəyən, onun təsərrüfatını genişləndirən, kəndin turizm ehtiyatlarının dayanıqlılığını təmin edən və xidmət sektorunda keyfiyyət amilini ön plana çəkən ən mühüm amildir. Yəqin ki, bu yerdə heç kimin onlara göstərilən pulsuz xidmətlərin səviyyəsinin artırılmasını tələb etməyə haqqı olmadığını yada salmağa lüzum yoxdur. Məhz buna görə də kənd turizminə təsadüfi gəlmiş əziz qonağa tələm-tələsik manqal çatıb xoşgəldin etmək deyil, kəndə hələ iki-üç ay sonra gələcək şəhərli turistlərə lazım olacaq bütün kompleks xidmətləri göstərə bilmək üçün planlı, məqsədli şəkildə aparılan bütün hazırlıq işlərinin yekun nəticəsi kimi baxmaq lazımdır. Bu işlərə isə hamının – kənddə ödədiyi pula görə keyfiyyətlə dincəlmək istəyən turistlərin və kəndin inkişafını, onun əhalisinin bütün təbəqələrini, buradakı hər cür məşğuliyyət sahibi olan insanların mənafelərini düşünən dövlətin də marağı vardır. Turizm, xüsusən kənd turizmi bu maraqların ödənilməsinin ən yaxşı üsullarından biridir.

*Hörmətli oxucular! Kənd turizmindən bəhs edəcəyimiz növbəti yazılarda kəndlərimizin tarixi, abidələri, gəzməli, görməli yerləri, belə yaşayış məntəqələrində yaradılan şərait, müasir infrastruktur, kənd turizm marşrutları barədə ətraflı məlumat verəcəyik.*

**Səhifəni hazırladı: Əli CABBAROV**



# İdman sağlamlıqdır

*"Sağlam həyat sağlam idmanın nəticəsidir". Bu deyim idman sahəsində çalışan həkimlərin apardıqları araşdırmalardan sonra özləri üçün seçdikləri devizdir. Hər gün yüksək əhval-ruhiyyədə olmaq, enerjili və sağlam həyat yaşamaq istəyənlərə həkimlərin ilk və əsas məsləhəti idmanla məşğul olmaqdır.*

*İdmanın xeyri*

İdman insanın həyat tərzini müsbət və ya mənfi yöndə dəyişdirə bilən kompleks fəaliyyət sistemidir; onu tanınmış simaya çevirir, yaxud əlil buraxır. Ancaq həkimlər bu sahədən düzgün yararlananların heç vaxt mənfi halla üzləşmədiyini qeyd edirlər. Bəs idmanla məşğul olmağın bizə nə kimi xeyir və ya xeyirləri var? Aparılan araşdırmalardan sonra məlum olub ki, bu sahənin insan orqanizmi üçün aşağıdakı xeyirləri var:

*Əhvalı yüksəldir.* İdman sayəsində narahatlıq və gərginlik aradan qalxır, əsəb sistemi, belə demək mümkünsə, müalicə olunur. Nəticədə, insan özünü gümrah və əvvəlkindən daha yaxşı hiss edir; idman xroniki xəstəliklərin qarşısını alır. Müntəzəm idmanla məşğul olmaq yüksək qan təzyiqini və qanda xolesterinin miqdarını nizamlayır. Bu, orqanizmi xroniki xəstəliklərə daha dözümlü edir; idman çəkini qorumağa kömək edir. Müntəzəm idmanla məşğul olan zaman insan kalori itirir ki, bu da artıq çəkidən xilas olmağa kömək edir; idman ürəyin və ağciyərin funksiyasını gücləndirir. Müntəzəm idman vücudu oksigenlə zənginləşdirir, damarlarda qan dövranını artırır ki, bu da ağciyərin və ürəyin fəaliyyətinin yüksək formada tənzimlənməsi ilə nəticələnir. Bundan başqa, idman edərkən insan beyninə onun fəaliyyəti üçün vacib olan zəngin oksigen daşınmış olur. Bütün bunların sayəsində insanda əmələ gəlmiş yuxusuzluq və təngnəfəslik aradan qalxır.

Məlum olduğu kimi, əsəb pozğunluğu, depressiya, nevroz insanın bütün orqanizminin zəifləməsinə, vücudda bir sıra xəstəliklərin baş qaldırmasına səbəb olur. Həkimlər əsəb pozğunluğu, depressiya, nevrozun qarşısını almaq üçün ən əvvəl insanları idmanla məşğul olmağa çağırırlar. Bir çox xəstəliklər var ki, onları dərman preparatları ilə deyil, idmanın müxtəlif növlərindən yararlanmaqla daha effektli aradan qaldırmaq olur. Məsələn, əsəbsakitləşdirici B1 vitamini əvəzolunmaz həb hesab edilir. Lakin insan üzgüçülüklə məşğul olmaqla bu sarsıntını dəf edə bilər. Həmçinin əsəbləri çəkilmiş tarımdan xilas etməkdə tennis və ya bovlinq oynamaq olduqca effektlidir.

Beyin əqli cəhətdən yorulanda yaddaş pozğunluğu yaranır, əhval-ruhiyyə qəfildən pisləşir. Bu zaman həkimlərin ilk tövsiyəsi B12 vitaminindən faydalanmaq olur. Ancaq insanlar bu vəziyyətdən də idman vasitəsilə qurtula bilərlər. Bunun üçün onların futbol və ya basketbol oynamaları kifayətdir. Eyni zamanda beyində olan qarışıq düşüncələri aydınlaşdırmaq üçün həmin idman növlərində keçirilən görüşləri izləmək də nəticəyə varılmasına xeyirlidir.

Beyinin yaxşı işləməsi və hormonal balansın qorunması üçün həkimlərin məsləhəti dərmanlardan istifadədir. Lakin insanın gördüyü işi beyni ilə düşünüb addım atdığını nəzərə alsaq, o zaman düşündürən idman növlərindən istifadə labüd olacaqdır. Bu problemi aradan qaldırmaq üçün şahmat, stolüstü tennisdən və güləşin yunan-Roma növündən bəhrələnmək vacibdir.

Bəs insanı infarkt və diabetdən qoruyan hansı idman növləridir? Gündəlik 30 dəqiqəlik gimnastika artıq çəkidən xilas olmağa, qan təzyiqinin və şəkərin səviyyəsinin normallaşmasına kifayət edir. Beləliklə, artıq çəkidən qurtulmaq şəkərin, normal qan təzyiqi isə infarktın qabağını almış olur. Ötən il idmanla diabetin və infarktın qarşısını almaq məqsədilə bir qrup mütəxəssis insanlar üzərində maraqlı müşahidələr aparıb. Həmin müşahidələr diqqətçəkici məqamlarla nəticələnib. Belə ki, ürək-damar xəstəliklərinin inkişafı sindromu və diabet xəstəliyi müşahidə olunan bir qrup insana 8 ay müddətində işə avtobus və ya avtomobillə deyil, piyada getmək məsləhət görülüb. Müşahidələrin sonunda həmin insanların yarısında diabet xəstəliyinin idarəolunan formada tənzimləndiyi və yaranacaq infarkt riskinin kəskin şəkildə azaldığı məlum olub.

## Bu gün yumruqlar "işə" düşür

*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə bu gün boks üzrə Naxçıvan Muxtar Respublika turnirinə start veriləcək.*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Boks Federasiyasının birgə təşkil etdiyi birincilik 3 gün davam edəcək. Artıq dünən idmançıların hansı çəki dərəcəsində rinqə çıxacaqları müəyyənləşib. 200-ə yaxın idmançının mübarizə aparacağı turnirdə boksçular 13 çəki dərəcəsində – 38, 42, 46, 48, 52, 54, 56, 60, 64, 69, 75, 81 və 91 kiloqramda yumruqlarını "işə" salacaqlar. Bu gündən etibarən start verilən turnirə mayın 2-də yekun vurulacaq.

Qeyd edək ki, turnirdə fərqlənən idmançılara nazirlik və federasiya tərəfindən diplom və qiymətli hədiyyələr veriləcək.

## Məktəblilərimiz Mingəçevirdən kubokla qayıtdı

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin birgə təşkil etdiyi "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülük üzrə Naxçıvan Muxtar Respublika birinciliyinin qalibi olmuş Şərur komandası respublika birinciliyində də mükafatçılar arasında yer almağı bacarıb. Belə ki, ötən həftə Mingəçevir şəhərində keçirilən Azərbaycan çempionatında uğurla çıxış edən məktəblilərimiz turniri üçüncü pillədə başa vurublar. Şərur şəhər 2 nömrəli tam orta məktəbin şagirdləri Mingəçevirdə təşkil olunan birincilikdə hamını təəccübləndirməyə müvəffəq olublar.

Bununla, "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülük üzrə Azərbaycan çempionatının üçüncüsü olan komandamız Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən diplom və kubokla təltif edilib.

**Ceyhun MƏMMƏDOV**

## Şahmat üzrə üçüncü zona yarışı keçirilib



Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə Babək Rayon Uşaq-Gənclər Şahmat Məktəbində rayon ümumtəhsil məktəbləri arasında keçirilən şahmat yarışının üçüncü zona yarışı keçirilib.

Yarışda Didivar, Şıxmahmud, Xəlilli kənd, Cəhri kənd 1 və 2 nömrəli tam orta məktəblərin şagirdləri iştirak ediblər. Yarışda birinci yerə Cəhri kənd 1 nömrəli, ikinci yerə Cəhri kənd 2 nömrəli tam orta məktəblərin şahmatçıları çıxıblar. Üçüncü yeri isə Didivar kənd tam orta məktəbinin şagirdləri tutublar.

Məlumat üçün deyək ki, qaliblər may ayının 5-də Babək Rayon Uşaq-Gənclər Şahmat Məktəbində keçiriləcək final mərhələsinə vəsiqə qazanıblar.

**Sona MİRZƏYEVA**

## Konsert proqramı muxtar respublikanın yubileyinə həsr olunmuşdu

Culfa Rayon Mədəniyyət və Turizm Şöbəsinin təşkilatçılığı ilə Culfa şəhərində Bənəniyar Kənd Uşaq Musiqi Məktəbi şagirdlərinin Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyi münasibətilə konserti olmuşdur. Rayon ictimaiyyətinin böyük maraq göstərdiyi konsertdə məktəbin şagirdləri tərəfindən milli muğamlarımız, Naxçıvanın təbiətinə, tarixinə həsr olunmuş mahnılar səsləndirilmişdir. Konsert proqramı tamaşaçılar tərəfindən alqışlarla qarşılanmışdır.

**Xəbərlər şöbəsi**

## Ümummilli liderə ithaf olunmuş konsert

*Naxçıvan Dövlət Universitetində ali təhsil ocağının Fortepiano kafedrası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə universitetin professor-müəllim heyətinə və tələbələrinə konsert proqramı təqdim edib. Dahi öndərə ithaf olunmuş konsertdə öncə müəllim Nazilə Qardaşbəyova kafedranın yaranma tarixindən və sənət uğurlarından danışıb.*

Konsert proqramı universitetin müəllimi, şair-publisist Vaqif Məmmədovun sözlərinə professor Səidə Məmmədovanın bəstələdiyi "Tələbələr mahnısı" ilə başlayıb. Universitetin IV kurs tələbəsi Nərmin Əkbərli, II kurs tələbəsi Mohammad Sadouqi, III kurs tələbəsi Anıl Gürel və digərləri Vanhell, Vervik, P.Çaykovski, Ü.Hacıbəyli, F.Əmirov, V.Adıgözəlov kimi dünya və Azərbaycan bəstəkarlarının əsərlərini ifa ediblər. F.Əmirov və E.Nəzirovanın "Fortepiano və orkestr üçün konsert"i müəllimlərdən Fəridə Ağayeva və Nərminə Qədimovanın, II kurs tələbəsi Ziniyət Məmmədovanın birgə ifasında alqışlarla qarşılanıb.

Sonda universitetin rektoru, professor Saleh Məhərrəmov çıxış edərək konsertin Azərbaycan mədəniyyətinin və incəsənətinin inkişafında əvəzsiz xidmətləri olan ümummilli liderin doğum gününə, "Muxtariyyət ili"nə sənət töhfəsi, eyni zamanda muxtar respublikada ali musiqi təhsilinin səviyyəsinin yüksək göstəricisi olduğunu bildirib.

## Universitetin "Meridian" vokal qrupu "Univiziya" müsabiqəsində

*Azərbaycan Respublikasının Gənclər və İdman, Mədəniyyət və Turizm nazirliklərinin dəstəyi ilə Azərbaycan Tələbə-Gənclər Təşkilatları İttifaqı tərəfindən "Univiziya" tələbə mahnı müsabiqəsi keçirilmişdir.*

İlkin dinləmələrin sonunda 50 ali və orta ixtisas təhsili müəssisəsindən 22 təhsil ocağının təmsilçiləri müsabiqənin yarımfinal mərhələsinə vəsiqə qazanmışlar. Naxçıvan Dövlət Universitetini müsabiqədə universitetin xarici tələbələrdən ibarət "Meridian" vokal qrupu təmsil etmişdir. Vokal qrupunun bədii rəhbəri universitetin Orkestr alətləri və dirijorluq kafedrasının müdiri, Naxçıvan Muxtar Respublikasının əməkdar artisti Validə Hüseynovadır.

"Meridian" vokal qrupunun ifa etdiyi amerikalı pop musiqiçisi olmuş Maykl Ceksonun Layonel Riçi ilə birlikdə yazdığı "We are the world" mahnısı, Azərbaycanın xalq artisti, bəstəkar Emin Sabitoğlunun "Gün keçdi" kinofilminə bəstələdiyi mahnı, "Sarı gəlin" xalq mahnısı münsiflər tərəfindən yüksək qiymətləndirilmişdir.

Müsabiqənin bu günlərdə keçirilən yarımfinal mərhələsində də "Meridian" qrupu uğurla çıxış etmişdir. Tünzalə Ağayevanın repertuarından olan "Mən fəxr edirəm ki, azərbaycanlıyam" mahnısı alqışlarla qarşılanmışdır. Qrup tamaşaçı nominasiyasının qalibi olmuş və pul mükafatına layiq görülmüşdür.

**Mehriban SULTAN**

## Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi

### *Dövlət vergi orqanlarına işə qəbul olunmaq istəyən vətəndaşlar üçün müsabiqə elan edir*

Dövlət vergi orqanlarına xidmətə qəbul "Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə"yə və "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"yə müvafiq olaraq aparılır.

Müsabiqəyə sənəd qəbulu 01.05.2014-cü il tarixdən 31.05.2014-cü il tarixədək aparılır. İştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Vergilər Nazirliyi tərəfindən müəyyən olunmuş formada ərizə (blank Vergilər Nazirliyi tərəfindən verilir)*

*2. Şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq olunmuş surəti*

*3. Kadrların şəxsi uçot vərəqəsi*

*4. Tərcümeyi-hal*

*5. 4x6 santimetr ölçüdə 2 ədəd, 9x12 santimetr ölçüdə 1 ədəd, 2,5x3,5 santimetr ölçüdə 2 ədəd rəngli fotoşəkillər*

*6. Ali təhsil barədə diplomun notarial qaydada təsdiq olunmuş surəti (xarici ölkədə təhsil almış namizədlərin diplomları qanunamüvafiq qaydada notarifikasiya olunmalıdır)*

*7. Əmək kitabçasının təsdiq olunmuş surəti (son iş yeri barədə qeydin olması şərti ilə) və ya əmək fəaliyyətinin olmadığı haqqında arayış*

*8. Yaşadığı yerin poliklinikasından sağlamlıq barədə arayış*

*9. Narkoloji Dispanserdən arayış və yoxlama aktı*

*10. Yaşadığı ünvan və ailə tərkibi haqqında arayış*

*11. Nikah, uşaqların doğum və boşanma haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq olunmuş surətləri*

*12. Hərbi biletin qeyd aparılmış bütün vərəqlərinin surəti (notarial qaydada təsdiq olunmuş).*

Bu sənədlərdən hər hansı biri çatışmadıqda və ya saxta olduğu aşkar edildikdə namizəd müsabiqəyə buraxılmır. Sənəd qəbulu zamanı əyani şöbədə ali təhsil alan, ali təhsilə malik olmayan, yaşı 35-i keçmiş, məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edilən və üzərindən məhkumluğu götürülməyən və ya ödənilməyən, qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırışyaşlı vətəndaşların sənədləri qəbul edilmir. Müsabiqədə iqtisadiyyat, hüquq, idarəetmə və beynəlxalq münasibətlər ixtisas sahələrindən birinə malik olan və Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Müsabiqəni müvəffəqiyyətlə keçmiş namizədlərə yalnız aşağıda göstərilən 53 sayda vakant yer üzrə iş təklif ediləcəkdir:

*1. Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi – 18 yer*

*2. Naxçıvan Şəhər Vergilər İdarəsi – 4 yer*

*3. Şərur Rayon Vergilər Şöbəsi – 3 yer*

*4. Babək Rayon Vergilər Şöbəsi – 9 yer*

*5. Ordubad Rayon Vergilər Şöbəsi – 4 yer*

*6. Culfa Rayon Vergilər Şöbəsi – 2 yer*

*7. Kəngərli Rayon Vergilər Şöbəsi – 5 yer*

*8. Şahbuz Rayon Vergilər Şöbəsi – 6 yer*

*9. Sədərək Rayon Vergilər Şöbəsi – 2 yer*

***Qeyd:* Müsabiqəni müvəffəqiyyətlə keçmiş hər hansı sahibkarlıq fəaliyyəti ilə məşğul olan namizədlər fəaliyyətləri ləğv olunmadan işlə təmin olunmurlar.**

Namizəd ona təklif olunan vəzifədən imtina edərsə, Vergilər Nazirliyinin kadr ehtiyatından çıxarılacaq.

Boş yerlərin sayı müsabiqənin sonuna qədər dəyişə bilər.

### *İtmişdir*

"Transoil" Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN-0200316681) hüquqi adı dəyişilərək "Aztransoil" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.

### *Allah rəhmət eləsin*

AMEA Naxçıvan Bölməsinin kollektivi iş yoldaşları Əsabil Babayevə, qardaşı
**QƏHRAMAN BABAYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Elnur Kəlbizadə
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 395